# Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Və hər ikisində də xeyir vardır.

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Və hər ikisində də xeyir vardır. Sənə faydalı olan şeylərə həris ol. Allahdan yardım istə və acizlik etmə. Başına bir müsibət gəldiyi zaman "əgər belə etsəydim bu cür olardı, belə olardı" demə. Lakin de ki, "Allahın qədəridir və O, istədiyini edir". Çünki "əgər" kəliməsi şeytanın edəcəyi işlərə qapı açır".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, hər bir mömin xeyirlidir. Lakin imanı, əzmi, malı və digər cəhətləri ilə güclü olan mömin, Allah üçün zəif mömindən daha xeyirli və daha sevimlidir. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) mömin olan kəsə Uca Allaha etimad edərək, Ondan yardım istəyərək və ona təvəkkül edərək, özünə fayda verəcək, dünya və axirətlə bağlı işlərdə səbəbləri götürməsini tövsiyə etmişdir. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər iki dünyada faydalı olan işləri etməkdə acizlik göstərməyi, tənbəllik etməyi və qəfləti qadağan etdi. Əgər mömin Allahdan kömək istəyərək səylə çalışarsa və səbəblərdən yapışarsa və Allahdan xeyir istəyərsə, o zaman bütün işlərini yalnız Allaha həvalə etməli və Uca Allahın seçiminin daha xeyirli olduğunu bilməlidir. Bundan sonra başına bir müsibət gələrsə belə deməsin: "Əgər belə etsəydim, belə olardı" Qədərə etiraz edərək, olub keçənlərə kədərlənərək "əgər və ya kaşki" demək şeytana qapı açır. Lakin təslimiyyət və razılıqla "Allahın qədəridir və O, istədiyini edir" desin. Baş verən hər şey Allahın istədiyi kimi olmuşdur. Çünki O, istədiyini edəndir. Onun hökmünü rədd edəcək (ortadan qaldıracaq) və hökmünü qınayacaq heç kim yoxdur.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee